Agatha Christie

# QƏTL ELAN OLUNUR

Tərcüməçi:
Afaq Mustafa

qanun nəşriyyatı

Agatha Christie

# A MURDER IS ANNOUNCED

Littl-Peddoks şəhərciyinin sakinləri səhər qəzetində belə bir elana rast gəlirlər: “Qətl elan olunur! Cümə günü, 29 oktyabrda, saat 18:30-da Littl-Peddoksda baş tutacaq. Yalnız bu gün! Dostlar, iştirak etməyə tələsin!” İndi onlar nə etsinlər?

Bu cinayəti ancaq bir nəfər – qeyri-adi məntiqə malik miss Marpl çözə bilər.

**Agatha Christie** **A MURDER IS ANNOUNCED**
**Aqata Kristi** **QƏTL ELAN OLUNUR**
Bakı, Qanun nəşriyyatı, 2023, 296 səh.

Janr: fiction/roman/detektiv
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 14.06.2023

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Afaq Mustafa
Redaktor: Aliyə Yaqublu
Korrektorlar: İradə İslamova, Bəhruz Davudov
Texniki redaktor: Əsəd Qaraqaplan
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-710-0

© Qanun Nəşriyyatı, 2023
A Murder is Announced™ is a trade mark of Agatha Christie Limited and Agatha Christie® Marple® and the Agatha Christie Signature are registered trade marks of Agatha Christie Limited in the UK and elsewhere. Copyright © 1950 Agatha Christie Limited. All rights reserved. www.agathachristie.com

Bu kitabın Azərbaycan dillinə tərcümə və yayım
hüquqları "Qanun Nəşriyyatı"na məxsusdur. Kitabın təkrar
və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar
.haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir

# I FƏSİL

## *Qeyri-adi elan*

Səhərlər (bazar günləri istisna olmaqla), saat səkkizin yarısından doqquzun yarısına qədər Conni Batt ucadan fit çala-çala Çippinq-Kleorn qəsəbəsini dolaşar, hər evin qabağında dayanıb velosipedindən düşər və ev sahiblərinin Hay-strit köşkündə abunə olduqları qəzetləri poçt qutularına qoyardı. O, polkovnik İsterbrukla xanımına “The Times” və “News chronicle”, miss Blekloka isə “Daily Telegraph”, “The Times” və “Daily mail” qəzetlərini gətirərdi.

Cümə günləri isə Conni Batt həm bu şəxslərə, həm də Çippinq-Kleornun digər sakinlərinə, əlavə olaraq, “The NorhBenham News and Chipping-Cleghorn Gazette”i də çatdırardı – yerlilər bu nəşri sadəcə “Qəzet” adlandırırdılar.

Və hər cümə günü Çippinq-Kleornun əksər sakinləri digər nəşrlərin başlıqlarına (“DÜNYADA GƏRGİNLİK ARTIR!”, “BU GÜN BMT-nin BAŞ MƏCLİSİ TOPLANACAQ”, “POLİS SARIŞIN MAŞINİST QIZI ÖLDÜRƏNİN İZİNƏ DÜŞÜB!”, “ÜÇ MƏDƏNDƏ TƏTİL”, “SİSAYD” HOTELİNDƏ İYİRMİ ÜÇ NƏFƏR QİDA ZƏHƏRLƏNMƏSİNİN QUR-

BANI OLDU" və s.) gözucu nəzər salaraq tələsik "Qəzet"i vərəqləyər və diqqətlə yerli xəbərləri oxumağa başlayardılar. On abunəçidən doqquzu dərin nifrət və ədavət saçan məktubların dərc olunduğu səhifəyə tez göz gəzdirərək şəxsi elanları oxumağa başlayardı. Burada evlərin kirayə verilməsi və ev işləri üçün köməkçi axtarılması haqda elanlar, itlər, ev quşları, bağ inventarı və s. barədə məlumatlar – bir sözlə, Çippinq-Kleornun kiçik icmasını maraqlandıra biləcək hər şey qarışıq bir şəkildə çap olunardı.

Cümə günü – 29 oktyabr da istisna deyildi...

Missis Svettenhem kül rəngli qıvırcıqlarını alnından geri ataraq "The Times"ı açdı, yorğun nəzərlərlə son hadisələrin işıqlandırıldığı sol səhifəyə nəzər salıb həmişə olduğu kimi, yenə bu qənaətə gəldi ki, dünyada qeyri-adi bir hadisə baş vermiş olsa belə, "The Times" onu malalayıb ört-basdır edə biləcək. O, dərindən nəfəs alıb ad günləri, toylar və vəfat edənlərlə bağlı (Missis Svettenhemi xüsusilə sonuncusu maraqlandırırdı!) xronikaya baxdı, sonra borcunu yerinə yetirmiş adam rahatlığı ilə "The Times"ı kənara qoyub "Qəzet"i götürdü. Az sonra oğlu Edmund otağa girəndə missis Svettenhem artıq yerli xəbərləri oxuyurdu.

– Sabahın xeyir, əzizim, – missis Svettenhem dedi. – Bilirsən, Smedli öz "Daymler"ini satır. Otuz beşinci ilin istehsalıdır. Lap köhnədir, eləmi?

Oğlu nəsə mızıldanıb özünə qəhvə süzdü, hisə verilmiş balıqlardan bir neçəsini götürüb oturdu, "Daily Worker" i açıb içində qızardılmış çörək dilimləri olan məcməyiyə söykədi.

– "Buldoq küçükləri", – missis Svettenhem ucadan oxudu. – Düzü, başa düşə bilmirəm, indiki vaxtda belə iri itləri necə

doyuzdurmaq olar!.. Həəə, Selina Lorens yenə aşpazla bağlı elan verib... Məncə, vaxt itkisidir. İşə bax, heç ünvanı da qeyd etməyib, sadəcə indeks!.. Hmm.., çox böyük səhvdir.., indi xidmətçilər nə olursa-olsun, yaxşı yerə işə düzəlmək istəyirlər... "Süni dişlər..." Anlamıram, niyə indi bunlara belə tələbat var ki? Çox bahadır! "Əla soğan. Xüsusi çeşidimiz". Guya əlverişli qiymətədir... "Qız maraqlı bir iş axtarır, səyahət etməyi də xoşlayır". Buna bir bax, guya orijinallıq edir! Səyahət etməyi də xoşlayır! "Taksalar"... Şəxsən mənim heç vaxt taksalardan xoşum gəlməyib. Ona görə yox ki, alman cinsidir, indi artıq belə şeylərin əhəmiyyəti yoxdur. Sadəcə, bəyənmirəm, vəssalam!.. Buyurun, missis Finç.

Qapı aralandı, kandarda başında köhnə məxmər beret olan, iricüssəli qaraqabaq qadın göründü.

– Sabahınız xeyir, mem, – qadın ucadan dedi. – Masanı yığışdırmaq olar?

– Xeyr-xeyr, gözləyin. Biz hələ səhər yeməyini bitirməmişik, – missis Svettenhem həyəcanlandı. – Daha doğrusu, yemişik, amma hələ tam bitirməmişik, – deyə o, ehtiyatla əlavə etdi.

Missis Finç qəzet oxuyan Edmunda acıqlı bir nəzər saldı və fınxıraraq otaqdan çıxdı.

– Mən ki indicə oturmuşam, – Edmund sözə başlamaq istəyirdi ki, anası ona imkan vermədi:

– Xahiş edirəm, Edmund, bu pis qəzeti oxuma! Missis Finçin onu görməyə gözü yoxdur.

– Başa düşə bilmirəm, mənim siyasi baxışlarımın missis Finçə nə aidiyyəti?

Amma missis Svettenhem ona qulaq asmırdı:

– Özü də bu qəzet işçilər üçündür, səns isə işçi deyilsən. Sən, ümumiyyətlə, işləmirsən.

– Bura baxın, bu lap ağ oldu! – Edmund özündən çıxdı. – Necə yəni işləmirəm?! Mən ki kitab yazıram!

– Əsl işi nəzərdə tuturam, – missis Svettenhem dəqiqləşdirdi. – Missis Finç isə, oğlum, bizə çox lazımdır. Bizdən inciyər, çıxıb gedər. – Yerinə kimi taparıq?

– "Qəzet"də elan verərik, – Edmund qımışdı.

– Nə danışırsan?! Bundan bir şey çıxmaz! İndiki zamanda həm yemək bişirən, həm də ev işlərini görən dayəsiz keçinmək olmaz, əzizim!

– Bəs bizdə niyə beləsi yoxdur? Necə olub ki, belə böyük səhvə yol vermisən, mənə vaxtında dayə tutmamısan? Bunu necə düşünməzsən axı, ana?!

– Əzizim, sənin hindli dayən vardı.

– Ah, sən heç uzaqgörən deyilsən, anacan! – Edmund dodağının altında mızıldandı.

Missis Svettenhem xronikanı oxumağa davam etdi:

– Otçalan maşın satılır, ikinci əl. Maraqlıdır... İlahi, qiymətinə bax!... Yenə taksalar... "Yaz, ya da zəng elə, ümidsizəm. Makaka". Necə gülünc ləqəbdir!... Koker-spaniel... Edmund, Syuzini xatırlayırsan? Lap adam kim idi, hər şeyi başa düşürdü... "Şeraton stilində bufet satıram. Əslidir, ailə yadigarıdır. Missis Lukas. "Days-Holl"". Yalançıya bax! Guya həqiqətən də əsl Şeratondur! – missis Svettenhem ikrahla donquldanıb oxumağa davam etdi: "Əzizim, hər şey səhv idi. Sevgi qəbrəcəndir. Cümə günü, həmişəki kimi. X". Yəqin sevənlər dalaşıblar. Bəlkə, bu, oğruların paroludur? Sən necə fikirləşirsən, Edmund? Yenə taksalar! Allah haqqı, millət taksa dəlisi olub. Guya başqa it-

lər yoxa çıxıb! Amma sənin dayın Saymonun Mançestr teryeri vardı, oğlum. Elə qəşəng köpək idi ki! Şəxsən mənim uzun pəncəli itlərdən xoşum gəlir... Xaricə köçən xanım iki nəfərlik kater satır... Bəs niyə qiymətini yazmayıb, təsvir etməyib?... Toy... yox e, QƏTL... Nə?! Birinci dəfədir belə şey görürəm... Edmund, Edmund, bir buna bax: "QƏTL ELAN OLUNUR! CÜMƏ GÜNÜ, İYİRMİ DOQQUZ OKTYABRDA, SAAT ON SƏKKİZ OTUZDA LİTTL-PEDDOKSDA BAŞ TUTACAQ! YALNIZ BU GÜN! DOSTLAR, İŞTİRAK ETMƏYƏ TƏLƏSİN!"

– Nə məsələdir, – Edmun gözünü qəzetdən ayırıb soruşdu.

– İyirmi doqquzu, cümə günü – bu gündür ki!

– Mənə ver görüm. İndi bu nə deməkdir ki? – Missis Seventtenhem maraqdan çatlayırdı.

Edmund fikirli halda burnunu qaşıdı:

– Bilmirəm... Yəqin, əyləncə məclisi təşkil edib qətl oyunu, ya da buna bənzər bir şey etmək qərarına gəliblər.

– Aaa, – missis Svettenhem şübhə ilə dedi. – Bu nə qəribə elan vermək tərzidir? Letisiya Bleklokdan çıxmayan iş, onu həmişə çox sağlamdüşüncəli qadın hesab etmişəm.

– Bəlkə, evində qalan o şən gənclərin təsirinə qapılıb?

– Qeyddə çox az məlumat var... Bu gün... Nə düşünürsən, biz də getməliyikmi?

– Burada yazılıb: "Dostlar, iştirak etməyə tələsin!"

– Ancaq qonaq dəvət etməyin bu yeni üsulunu bəyənmədim, çox ədəbsiz üsuldur! – missis Svettenhem qəti şəkildə bildirdi.

– Yaxşı, ana, getmə.

– Getmərəm də! – missis Svettenhem dedi.

Onlar susdular.

– Bu son dilimi, doğrudanmı, yemək istəyirsən, Edmund?

– Ah, ana, elə bilirdim, mənim düzgün qidalanmağım sənin üçün qoca kaftar Finçin masanı yığışdırmasından daha vacibdir!..

– Şşş, əzizim, eşidər!.. Bu "Qətl oyunu" nə deməkdir?

– Dəqiq bilmirəm, deyəsən, birinin paltarına bir kağız parçası yapışdırırlar, ya da yox, yəqin ki, kağızı papaqdan çıxadırlar. İştirakçılardan biri xəfiyyə olur, biri qurban, sonra işığı söndürürlər, bir nəfər əlini çiyninə kağız yapışdırılmış adamın çiyninə vurur. O, ucadan qışqırıb yerə yıxılır və özünü ölülüyə vurur.

– Hmm, cəlbedici səslənir.

– Mənə görə isə, dəhşət darıxdırıcıdır. Mən getməyəcəm.

– Bu nə sözdür, Edmund?! – missis Svettenhem qəti şəkildə etiraz etdi. – Bir halda ki mən getməyə hazırlaşıram, deməli, sən də mənimlə gedəcəksən. Bunu müzakirə etməyəcəyik!

– Arçi, – missis İsterbruk ərinə dedi, – bir qulaq as!

Polkovnik İsterbruk "The Times" qəzetindəki məqaləni oxuya-oxuya əsəbi halda fısıldadığı üçün ona fikir vermədi.

– Bu məşhurların bədbəxtliyi ondadır ki, Hindistan haqqında zərrə qədər də təsəvvürləri yoxdur! Bircə zərrə də!

– Əlbəttə, əzizim, əlbəttə.

– Yoxsa cəfəngiyyat yazmazdılar.

– Elədir, Arçi, elədir. Bir qulaq as: "QƏTL ELAN OLUNUR! CÜMƏ GÜNÜ, İYİRMİ DOQQUZ OKTYABRDA! SAAT ON SƏKKİZ OTUZDA LİTTL-PEDDOKSDA BAŞ TUTATACAQ! YALNIZ BU GÜN! DOSTLAR, İŞTİRAK ETMƏYƏ TƏLƏSİN !"

Missis İsterbruk susub təntənəli şəkildə ərinə baxdı.

Eşitdikləri polkovniki çox da həyəcanlandırmadı, istehza ilə arvadını baxıb:

– Bu ki adi “Qətl oyunu”dur, – dedi.

Missis İsterbruk təəssüflə ah çəkdi.

Polkovnik belini dikəldib sözünə davam etdi:

– Hərçənd kifayət qədər əyləncəli də ola bilir. Amma gərək bu oyunu yaxşı bilənlərlə oynayasan. Əvvəlcə püşk atırlar. Oyunçulardan biri qatil seçilir. Həmin şəxsin kim olduğu gizli saxlanır. Sonra işığı söndürürlər. Qatil qurbanını seçir və iyirmiyə kimi sayıb qışqırır. Xəfiyyə seçilmiş oyunçu təhqiqata başlayır, hamını növbəylə sorğu-suala çəkir: harada idilər, nə ilə məşğul idilər – yəni qatilin kim olduğunu tapmağa çalışır. Hə, yaxşı oyundur, ancaq xəfiyyə... mmm.. polisin, adətən, necə işlədiyini bilirsə, baş çıxarırsa.

– Məsələn, sənin kimi, Arçi. Sənin dairəndə necə heyrətamiz araşdırmalar olub!

Polkovnik İsterbruk lovğalıqla gülümsəyib özündən razı halda bığını burdu.

– Elədir, Laura... Yəqin ki, mən onlara nəsə öyrədə bilərdim.

– Missis Bleklok nahaq səndən kömək istəməyib.

– İndi onun ətrafında o südəmərlər fırlanır! – polkovnik donquldandı. – O oğlan miss Bleklokun nəyidir ki? Bacısı oğlu?.. Yəqin, Letisiyanı elə o yoldan çıxarıb. Ağıla bax da! Belə elan verərlər? Gülməlidir!

– Elan xronika bölməsində çap olunub. Biz görməyə də bilərdik. Səncə, bu dəvətdir, Arçi?

– Yaman da dəvətdir! Mən getməyəcəm.

– Amma, Arçik! –missis İsterbruk yaltaqcasına ağlamsındı.